**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

№ 019/425

**Bakı şəhəri** “01” aprel **2025-ci il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022-2025-ci illər üzrə rəsmi məlumatlarına əsasən, Rusiya Federasiyasının Başqırdıstan (Bashkortostan), Buryatiya (Buryat), Tatarstan (Tatarstan) respublikalarında, Zabaykalsk (Zabaykalsky) diyarında, Çelyabinsk (Chelyabinsk) vilayətində **nodulyar dermatit,** Rusiya Federasiyasının Dağıstan Respublikasının Dərbənd (Derbent) rayonunda **xırdabuynuzlu heyvanların çiçək**, Macarıstanın Borşod-Abauy-Zemplen (Borsod-Abaúj-Zemplén), Dyör-Moşon-Şopron (Győr-Moson-Sopron) inzibati ərazi vahidlərində, Amerika Birləşmiş Ştatlarının Aydaho (Idaho), Alabama (Alabama), Nebraska (Nebraska), Qərbi Virciniya (West Virginia), Corciya (Georgia), Vaşinqton (Washington) ştatlarında isə qeydə alınmış **yüksək patogen quş qripi** xəstəlikləri aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəllesi”nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və “Quruda yaşayan heyvanların sağlamlıq Məcəllesi” nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Nodulyar dermatit:**

**1.1.1.** 2021-ci il 7 sentyabr tarixli 049/144 nömrəli qərarla Rusiya Federasiyasının Zabaykalsk diyarına tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2021-ci il 30 noyabr tarixli 072/167 nömrəli qərarla Rusiya Federasiyasının Başqırdıstan Respublikasına tətbiq edilmiş məhdudiyyət;

**1.1.3.** 2021-ci il 29 dekabr tarixli 079/174 nömrəli qərarla Rusiya Federasiyasının Çelyabinsk vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.4.** 2022-ci il 5 yanvar tarixli 001/176 nömrəli qərarla Rusiya Federasiyasının Buryatiya Respublikasına tətbiq edilmiş məhdudiyyət;

**1.1.5.** 2022-ci il 19 yanvar tarixli 005/180 nömrəli qərarla Rusiya Federasiyasının Tatarstan Respublikasına tətbiq edilmiş məhdudiyyət.

**1.2. Xırdabuynuzlu heyvanların çiçək xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 1 fevral tarixli 009/184 nömrəli qərarla Rusiya Federasiyasının Dağıstan Respublikasının Dərbənd rayonuna tətbiq edilmiş məhdudiyyət.

**1.3. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.3.1.** 2023-cü il 15 noybar tarixli 053/304 nömrəli qərarla Macarıstanın Borşod-Abauy-Zemplen inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.2.** 2023-cü il 25 dekbar tarixli 067/318 nömrəli qərarla Macarıstanın Dyör-Moşon-Şopron inzibati ərazi vahidinə və Amerika Birləşmiş Ştatlarının Aydaho ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.3.** 2025-ci il 10 yanvar tarixli 002/408 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Alabama ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.4.** 2025-ci il 21 yanvar tarixli 004/410 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Nebraska və Qərbi Virciniya ştatlarına tətbiq edilmiş məhdudiyyət;

**1.3.5.** 2025-ci il 10 fevral tarixli 011/417 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Corciya və Vaşinqton ştatlarına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer